# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 266/2** **30 sentyabr 2015-ci il**

**“Əlaqəli xidmətlərin göstərilməsini tənzimləyən normativ metodik bazanın yaradılması” barədə**

Auditor xidməti bazarının genişləndirilməsi məqsədi ilə qabaqcıl xarici təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi, əlaqəli auditor xidmətlərinin çeşidinin artırılması və “Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası”nda (2012-2020-ci illər) və Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 3.7-ci “Əlaqəli xidmətlərin göstərilməsini tənzimləyən normativ metodik bazanın yaradılması” bəndlərində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsini təmin etmək məqsədilə, Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış Əlaqəli xidmətlərin göstərilməsinə dair metodik göstərişi müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. “Əlaqəli xidmətlərin göstərilməsinə dair metodik göstəriş” Şurada müzakirə zamanı göstərilən irad və təkliflər nəzərə alınmaqla təsdiq edilsin (əlavə olunur).
2. Metodik göstəriş auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların nəzərlərinə çatdırılması üçün Palatanın internet səhifəsində yerləşdirilsin.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, 2015-ci il ərzində “Əlaqəli auditor xidmətləri” mövzusunda xüsusi seminarın keçirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**